# Üzeyir dünyası layihəsi



Bu layihənin rəhbəri ölkəmizin Birinci vitse-prezidenti UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır. O, 1995-ci ildə rəhbəri olduğu "Azərbaycan Mədəniyyətinin dostları" Fondu və prezidenti olduğu Heydər Əliyev Fondunun təşkilatçılığı və bilavasitə özünün rəhbərliyi ilə milli sərvətlərimizin qorunması və təbliği istiqamətində mühüm xidmətlər göstərib. Bu gün də uğurla davam olunan bu xidmətlərin mərkəzində duran vacib məsələlərdən biri də məhz Üzeyir Hacıbəyli irsinin tədqiqi və təbliğidir. Bu mənada Mehriban xanımın təşəbbüsü və onun rəhbəri olduğu "Mədəniyyətin dostları" Fondunun dəstəyi ilə Üzeyir bəyin anadan olmasının 120 illik yubileyi müxtəlif konsert proqramları və tədbirlərlə keçirilib. 2006-cıildə isə Vyana Kamera Teatrında Üzeyir bəyin "Arşın mal alan" operettası tamaşaya qoyulub.

Fondun Azərbaycan, rus və ingilis dillərində işıq üzü görən "Azərbaycan-İrs" jurnalında xalqımızın mədəniyyətinin, elm və incəsənət, o cümlədən Üzeyir Hacıbəylinin irsinin tədqiqi və beynəlxalq miqyasda təbliğinə geniş yer verilib.

Mehriban xanımın Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə Üzeyir bəyin irsinin əbədiyaşarlığı istiqamətində reallaşdığı möhtəşəm layihələrdən biri məhz Üzeyir Hacıbəylinin əsərlərinin nəşri, "Üzeyir Hacıbəyli ensiklopediyası" və dahi sənətkarın həyat və yaradıcılığına dair tədqiqat işləri daxildir. 2008-ci ildə işıq üzü görən bu layihə Üzeyir irsinə və sənətsevərlərə ən gözəl töhfədir. "Üzeyir dünyası" layihəsi çərçivəsində nəşr olunan kitablar, bəstəkarın əsərlərindən ibarət kompakt disklər və eləcə də "Üzeyir Hacabəyli ensiklopediyası" Üzeyir irsinin tədqiqi və öyrənilməsi üçün dəyərli bir mənbədir.

**Səadət TƏHMİRAZQIZI**